## "AAC" MMC-NİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ ÜZRƏ SİYASƏTİ

**Təsdiq edirəm;**
**"AAC" MMC-nin Direktoru**
**Zahid Şahbazov**
**"30" Sentyabr" 2023-cü il**

"AAC" MMC müasir tikinti materiallarının istehsalını və satışını həyata keçirir. Şirkət, özünün bütün fəaliyyət proseslərində ətraf mühitin çirklənməsinin qarşısının alınmasını və onun mühafizəsinin təmin edilməsini əsas götürərək aşağıdakı prinsipləri bəyan edir:

- İSO 14001:2015 Ətraf Mühiti İdarəetmə Sisteminin tətbiqində standartın bütün tələblərinin icra olunmasını və sənədləşdirilmiş məlumatların saxlanmasını təmin etmək;
- Ətraf Mühit İdarəetmə Sisteminin tətbiqi üçün lazımi resursları müəyyən etmək və təmin etmək;
- Ətraf Mühit İdarəetmə Sistemi üzrə siyasətin və məqsədlərin şirkətin kontekstinə və strateji istiqamətinə uyğun olmasını təmin etmək;
- Bütün fəaliyyət proseslərində Ətraf Mühitin Mühafizəsi sahəsində həm Azərbaycan Respublikasının Qanunvericiliyinin, həm də Beynəlxalq Konvensiyaların və tərəfdaş çıxdığı sazişlər üzrə müqavilələrin tələblərini layiqincə yerinə yetirmək;
- İstehsalat proseslərində ətraf mühitin müfahizəsi baxımından dünya standartlarının tələblərinə cavab verən material avadanlıq və qurğulardan istifadə etmək;
- Ətraf mühitin çirklənməsinin qarşısının alınması istiqamətində həyata keçirilən işləri daima yaxşılaşdırmaq, təkmilləşdirmək və inkişaf etdirmək;
- Ətraf mühitin mühafizəsi və çirklənməsinin qarşısının alınması istiqamətində hədəflər və məqsədlər müəyyənləşdirmək və həyata keçirmək;
- Yuxarıda göstərilən prinsiplərin vaxtında və keyfiyyətli yerinə yetirilməsi üçün işçi heyətin ətraf mühitin mühafizəsi sahəsindəki bilik və bacarıq səviyyəsinin daima artırılmasını təmin etmək;
- Ətraf mühitin mühafizəsi sistemini daima yaxşılaşdırmaq və inkişaf etdirmək üçün rəhbərlik tərəfindən onun mütəmadi olaraq təhlil etmək;

"AAC" MMC –nin Rəhbər heyəti Ətraf Mühitin Mühafizəsi üzrə Siyasətin bütün işçi heyətin nəzərinə çatdırılması və bütün əməkdaşlar tərəfindən onun prinsiplərinə əməl edilməsinin təmin olunmasını öz üzərilərinə götürürlər.